T Ü R K O L O G İ Y A

№ 1 **2020**

MUXTAR HÜSEYNZADƏ (Azərbaycan)

TƏYİNİ SÖZ BİRLƏŞMƏLƏRİ
(Ümumi məlumat)

Xülasə

Məqalədə əvvəlcə təyini söz birləşməsinin terminoloji mənası izah edilir, xüsusilə də təyini termininin elmi məna tutumuna aydınlıq gətirilir. Daha sonra bu təyini söz birləşməsinin nə kimi tərkibləri (birləşmələri) əhatə etdiyi müəyyənləşdirilir. Ardınca hansı sözlərin söz birləşməsi əmələ gətirməsi, hansıların isə birləşmə təşkil edə bilməməsi, təşkil etsə də, nəzərdə tutulan söz birləşmələri ilə əlaqədar olmaması izah edilir. Təyini söz birləşməsinin hüdudları, izafət tərkiblərinin bu hüdudlarda tutduğu yer, həmçinin bu hüdudlara daxil olmayan ifadələr və konstruksiyalar elmi və məntiqi şəkildə göstərilir. Müəllif təyini söz birləşməsində məntiqi (məna) bağlılıq və qrammatik (formal) vasitənin əsas şərtlərdən olduğunu bildirərək təyini söz birləşməsini konkret nümunələrlə təfərrüatlı izah edir. Alim təyini söz birləşməsinin əsas şərtlərindən birinin tərkibə (birləşmənin tərkibinə) daxil olan sözlərin bərabər hüquqlu olmamasını əsas gətirərək qoşa sözlərin bu kateqoriyaya aid olmadığını nümunələrlə sübuta yetirir. Həmçinin mürəkkəb sözlərlə təyini söz birləşmələrinin arasında sərhədləri konkret müəyyən edir.

Açar sözlər: *təyini söz birləşmələri, atributiv, söz birləşmələri, qoşa sözlər, mürəkkəb sözlər, cümlə, izafət tərkibləri.*

Cümlə əmələ gətirməyən hər hansı iki sözün birləşməsinə təyini söz birləşməsi deyilir. Təyini söz birləşmələrinin özlərinə məxsus bir sıra xüsusiyyətləri vardır. Söz birləşməsinə təyini sözünün əlavə edilməsi ilə, bir tərəfdən, nəzərdə tutulan söz birləşmələrində əsasən təyinlik məzmununun həlledici rol oynaması, digər tərəfdən, bir çox dil alimlərinin geniş mənada təsəvvür etdikləri söz birləşmələri ilə bu söz birləşmələrinin eyni olmaması qeyd edilir. Məsələnin aydınlaşması üçün fikrimizi bir qədər izah edək.

Bəzən belə iddia edilir ki, guya iki sözün əmələ gətirdiyi həqiqi söz birləşməsinin birinci sözü ikincinin ya təyini, ya da tamamlığı olur. Belə iddiada olanlar birləşməni əmələ gətirən sözlərin məzmun bağlılığına, məna əlaqəsinə fikir verməyib, yalnız sözlərin şəkli cəhətinə (formasına) əsaslanırlar.

Bəzilərinin fikrincə, izafət adlanan söz birləşməsinin birinci sözü yiyəlik hal şəkilçisi ilə işləndiyi zaman tamamlıq hesab edilir; şəkilçisiz işlənən birinci sözü isə təyin kimi qəbul edilir. Bizim fikrimizcə, formal əlamət birinci sözün təyinlik vəzifəsini aradan qaldıra bilmədiyi üçün, nəzərdə tutduğumuz bu tip söz birləşmə-

lərinin hamısında birinci söz təyin hesab edilir və birləşmə də birinci sözə əsasən təyini söz birləşməsi adlanacaqdır[1].

İndi də söz birləşməsinin təyini söz birləşməsi adlanmasının ikinci səbəbini izah edək. Deyildiyi kimi, söz birləşmələrinin dairəsi dilçi alimlər tərəfindən çox geniş təsəvvür edildiyindən nəinki təyinlə təyin edilən, hətta tamamlıqla xəbər, zərfliklə xəbər, qoşmalarla işlənən isim və əvəzliklər də söz birləşməsi hesab edilir. Bundan başqa, mübtəda ilə xəbərin uzlaşması və cümlədəki yeri izah edilərkən onlar da söz birləşməsi adı ilə izah edilir.

Yeri gəlmişkən onu da deməliyik ki, təyini söz birləşməsindəki birinci sözün hər yerdə və hər cür münasibətlərdə yalnız təyin rolu oynayacağını göstərdik. Buradan belə bir nəticə çıxarılmamalıdır ki, məntiqi kateqoriya olan atributiv (təyinedici) vəzifəli hər söz hər hansı bir sözün əvvəlində işləndiyi zaman təyini söz birləşməsi əmələ gətirə bilər. Atributiv vəzifəli sözlərin feillərin də (hərəkət bildirən sözlərin) əvvəlində işlənib, onlardan asılı olduğunu, hərəkətin zamanını keyfiyyətini, kəmiyyətini və icra tərzini müəyyən etdiyini inkar etmək olmaz; lakin bu sözlər məntiqə görə deyil, qrammatikaya görə cümlə üzvü hesab edildiyi üçün onlar zərflik kimi tanınır və atribut vəzifəli sözlə onun asılı olduğu feil təyini söz birləşməsi hesab edilmir. Bu fikrin burada qeyd olunması ona görə lazımdır ki, bəzi alimlər məntiqi kateqoriya olan atribut anlayışı ilə onun təzahür forması hesab edilən qrammatik kateqoriyaları bir-birindən fərqləndirsələr də, bəzi təsadüflərdə bunları eyniləşdirirlər; yəni atribut vəzifəli sözləri həm obyekt, subyektin, həm də feilin təyini kimi göstərirlər. Belə ki, siz yaxşı oxuyursuz, siz tez gedirsiniz cümlələrində yaxşı oxuyursunuz, tez gedirsiniz feili birləşmələrini təyini söz birləşməsi kimi tanımaqla məntiqi kateqoriyalara əsaslanırlar. Bir daha təkrar edirik ki, bu feili birləşmələr də təyini söz birləşmələrindən kənarda qalır. Doğrudur, təyini söz birləşmələrində bəzən təyinlə təyinlənən bir cümlə kimi işlənib, müəyyən hökm ifadə edir; lakin belə cümlələr, əvvələn xəbər şəkilçiləri qəbul etməklə söz birləşməsi vəziyyətindən çıxaraq cümlə olur; digər tərəfdən, belə cümlələr ismi cümlə adlanır; bunların feillərlə əlaqəsi olmur; məs.: şirin almadır, keçici bayraqdır, qızıl saatdır və s. Demək, təyin sözünü biz yalnız ismi xəbərlərin əvvəlində işlənən bir üzv kimi qəbul edirik. Feili xəbərin əvvəlində işlənib onu müxtəlif cəhətlərdən izah edən sözlər zərflik kimi qəbul edildiyi üçün yalnız ismi cümlələrin təyini söz birləşmələri ilə yaxınlığı ola bilər. Feil cümlələr isə öz zərflikləri ilə bərabər təyini söz birləşməsindən tamamilə ayrılır[2].

Təyini söz birləşmələrinin hüdud dairəsini daha da müəyyənləşdirmək üçün onun əhatə etdiyi sahəni aydınlaşdırmalıyıq.

[1] İkinci və üçüncü növ təyini söz birləşmələrinin birinci tərəflərinin təyin hesab edilməsi cümlə üzvünə görə deyil, birləşmənin tərkib daxilindəki mövqeyinə görədir.

[2] Burada təyinlərlə zərfliklərin asılı üzv olmaq etibarı ilə yaxınlığı nəzərə alınmır.

Təyini söz birləşməsinin hüdudu

Təyini söz birləşmələri Azərbaycan dili sintaksisində tutduğu sahə və əhatə etdiyi hüdud dairəsi etibarı ilə izafət, yaxud yiyəlik birləşməsi adlanan söz birləşmələrindən daha genişdir[3]. Təyini söz birləşməsi yalnız izafət, yaxud yiyəlik birləşməsi adı altında verilən birləşmələri deyil, eyni zamanda keçmiş qrammatika kitablarında sifət birləşməsi[4] və say birləşməsi[5] adlanan tərkibləri (birləşmələri) də əhatə edir. Lakin izafət adı altında dərk edilən söz birləşmələri təyini söz birləşməsinin çox hissəsini təşkil edir. Burada izafət, yaxud yiyəlik birləşməsi adlanan söz birləşmələrinin bu vaxta qədər Azərbaycan dili qrammatikalarında verilməyən bir çox xüsusiyyətləri şərh və izah edilir.

Qeyd etmək lazımdır ki, izafət termini türkoloji ədəbiyyatda geniş yayıldığına baxmayaraq, bu termini yenidən dilimizin qrammatika terminləri içərisinə daxil etməyə ehtiyac yoxdur.

Digər tərəfdən, son zamanlar izafət, yaxud izafət tərkibi terminlərinin əvəzində işlənən yiyəlik birləşməsi termini həmin izafətin əhatə etdiyi mənaları əhatə edə bilmədiyindən, yalnız yiyəlik məzmunu dairəsində qaldığından həmin terminдən də istifadə etmək doğru deyildir.

Üçüncü tərəfdən, təyini söz birləşmələrinin dairəsinə girən birləşmələr içərisində yalnız sifət və say birləşmələri təyinlik mənası ilə bağlı deyildir, eyni zamanda izafət, yaxud yiyəlik birləşməsi adlanan birləşmələrin də daxilində bu məna üstünlük təşkil edir və bu münasibətlə də ona təyini söz birləşməsi adı verilir.

Tədqiq etdiyimiz obyektin söz birləşmələri olduğunu, həm də hər hansı bir söz birləşməsi deyil, yalnız təyini söz birləşməsi olduğunu və bu təyini söz birləşməsinin nə kimi tərkibləri (birləşmələri) əhatə etdiyini qismən müəyyənləşdirdik. İndi də söz birləşməsinin özünü yəni hansı sözlərin birləşmə əmələ gətirdiyini, hansıların isə birləşmə təşkil edə bilmədiyini, təşkil etsə də, bizim nəzərdə tutduğumuz söz birləşmələri ilə əlaqədar olmadığını izah edək.

Təyini söz birləşməsində, heç olmazsa, iki sözün yan-yana işlənməsi nəzərdə tutulur. Lakin sıra ilə bir-birinin yanında gələn, mənaca bir-birinə bağlanmayan hər hansı iki söz təyini söz birləşməsi əmələ gətirə bilməz; məs.: ziyafət stolunun ətrafında oturanların qabağına çəngəl-bıçaq, boşqab və piyalə qoyulmuşdu – dedikdə sıra ilə bir-birinin ardınca gələn çəngəl-bıçaq, boşqab, piyalə sözlərinin arasında heç bir asılılıq və tabeli məna bağlılığı görmürük. Bunların sıra ilə düzülüşündə tabesizlik əlaqəsi vardır ki, bu da nə məna bağlılığı, nə də qrammatik vasitələrlə əmələ gəlmişdir. Sadalanan bu sözlərin yan-yana işlənməsi, onların aralarında məntiqi əlaqənin və qrammatik əlamətlərin olmaması onların bərabər hüquqlu olduğunu göstərir. Təyini söz birləşməsində məntiqi (məna) bağlılıq və qrammatik (formal) vasitə əsas şərtlərdən hesab edilir.

---

[3] İzafət adlanan söz birləşmələri Azərbaycan dilində uzun zaman "tərkibi-izafi", "izafət tərkibi", sonra da "yiyəlik birləşməsi" adı ilə işlənirdi.

[4] Sifət birləşməsi əvvəllər dilimizdə "tərkibi-tövsifi" və ya "tərkibi-vəsfi" adlanırdı.

[5] Bir sayla bir isimdən ibarət olan birləşmələr "tərkibi-tedadi", sonralar isə say birləşməsi adlanırdı.

Nəzərdə tutulan təyini söz birləşməsinin əmələ gətirmək üçün yan-yana işlənən iki söz arasında təkcə məna bağlılığı da kifayət deyildir. Azərbaycan dilində iki sözdən ibarət bir çox (qoşa) sözlər vardır ki, onların hər birinin ayrılıqda mənası olduğu halda, ikisi birlikdə bir məna ifadə edir. Həmin ayrı-ayrı mənalı sözlərin birləşib, yeni mənalı bir söz kimi dərk edilməsi həmin sözlər arasındakı məna bağlılığı ilə mümkün ola bilir; məs.: ata-ana (valideyn), ər-arvad (zövceyn), arpabuğda (taxıl), pəncək-şalvar (kastyum), qaş-qabaq (sifət), qaş-daş (ziynət), yorğan-döşək (yatacaq), toz-torpaq (zibil), süd-qatıq (ağartı) mənasında və s. Bütün bu misallardakı qoşa sözlərin arasında məna bağlılığının olmadığını iddia etmək qeyri-mümkündür. Lakin bu sözlərin heç biri təyini söz birləşməsi əmələ gətirmir. Nəzərdə tutulan təyini söz birləşməsinin əsas şərtlərindən biri tərkibə (birləşmənin tərkibinə) daxil olan sözlərin bərabər hüquqlu olmamasıdır, iki sözün birinin digərini özünə tabe etməsidir. Bu da o deməkdir ki, təyini söz birləşməsinin tərkibinə daxil olan sözlərdən biri müstəqil, digəri asılı olmalıdır.

Yuxarıdakı misallarda məna bağlılığı olsa da, sözlər arasında heç bir asılılıq və tabelilik əlaməti dərk edilmir.

Təyini söz birləşmələri və mürəkkəb sözlər

Təyini söz birləşmələrinin inkişafı mürəkkəb sözə doğru gedir. Bu inkişaf dilimizin çox qədim dövrlərindən başlanmışdır. Müasir dilimizdə bir sıra mürəkkəb isim, mürəkkəb sifət adlandırdığımız sözlər, şübhəsiz ki, təyini söz birləşmələrindən əmələ gəlmişdir. Bu gün mürəkkəb hesab etdiyimiz Şahsənəm, Hacıkənd, Mirzağa, Ağabacı, Xanımana, Qızbibi, Gülsənəm, Güləndam, Gülçöhrə, Qizbacı Anaxanım, hacıleylək, Böyükkişi, Xoşqədəm, Göyçay, Ağdam, ağsaqqal, ucaboy, qaragöz, girdəsifət, qaraqaş, göygöz, şirindil, acgöz, yekəbaş və s. sözlər birinci növ təyini söz birləşmələrindən əmələ gəlmiş mürəkkəb isim və mürəkkəb sifətlərdir.

Dilimizdəki ayaqqabı, boyunbağı, qəlyanaltı, dəvədabanı, kəklikotu, itburnu, suiti, çayırotu, xəmiraşı, bayramqabağı, seçkiqabağı, quşəppəyi, balıqqulağı, mərcanqulu, qarınqulu, şəkərçörəyi, qarğaduzu, yeralması, həkimbaşı, ustabaşı, taxtabiti, dəvəquşu, yazıpişiyi, quzuqulağı, yüzbaşı, minbaşı, əmioğlu, dayıoğlu, xalaoğlu, bibioğlu, dayıqızı, xalaqızı, əmidostu, toybəyi, toyağacı və s. ikinci növ təyini söz birləşməsindən əmələ gəlmiş mürəkkəb sözlərdir.

Ümumiyyətlə təyini söz birləşməsi ilə mürəkkəb söz arasında müəyyən dərəcədə yaxınlıq vardır. Bu yaxınlıq o dərəcədədir ki, bir sıra təyini söz birləşmələri (xüsusən, ikinci növ təyini söz birləşmələri) formaca təyini söz birləşməsi olduğu halda, məzmunca mürəkkəb ad hesab olunur. Buraya alma ağacı, tut ağacı, palıd ağacı, yorğan üzü, nar suyu, cib dəsmalı, ət suyu, küçə qapısı, mədəniyyət sarayı, Kommunist küçəsi və s. kimi təyini söz birləşmələrini daxil etmək olar.

Dilimizin leksikonunda Azərbaycan Maarif Nazirliyi, Azərbaycan Elmlər Akademiyası, Azərbaycan Dövlət Universiteti, Azərbaycan Sovet Yazıçılar İttifaqı kimi onlarla idarə, müəssisə və təşkilat adları işlənir ki, bunlar da ikinci növ təyini

söz birləşmələri formasında düzəlir, formaca təyini söz birləşməsi, məzmunca mürəkkəb idarə adları hesab olunur.

Təyini söz birləşmələri ilə mürəkkəb sözlər arasında bu yaxınlıq onların eyni olduğunu iddia etməyə haqq vermir. Onlar bir sıra xüsusiyyətlərlə bir-birindən fərqlənir. Həmin fərqlər aşağıdakılardan ibarətdir.

A. Birinci növ təyini söz birləşmələri ilə onlardan əmələ gəlmiş mürəkkəb sözləri bir-birindən ayıran əsas əlamət sözlərin müstəqil vurğuya malik olub-olmamasıdır. Birinci növ təyini söz birləşməsinin tərkibindəki sözlərin hər biri müstəqil vurğuya malik olur və sözlər ayrı yazılır; məs.: ala göz, qara qaş, ağ saqqal, şirin dil, girdə sifət, yekə baş, uca boy.

Həmin birinci növ təyini söz birləşmələrindən əmələ gəlmiş mürəkkəb sözlərin tərkibindəki birinci söz müstəqil vurğusunu itirir; vurğu yalnız ikinci sözün üzərinə düşür, beləliklə də, birinci söz təyin etdiyi ikinci sözlə birləşməli olur; məs.: alagöz, qaragöz, ağsaqqal, şirindil, girdəsifət, yekəbaş, ucaboy və s.

B. İkinci növ təyini söz birləşməsi ilə onlardan əmələ gəlmiş mürəkkəb sözləri bir-birindən aşağıdakı əsas cəhətlərə görə fərqləndirmək olar:

1. İkinci növ təyini söz birləşməsinin tərkibindəki sözlərin müstəqil vurğuya malik olub-olmamasına görə.

2. Cəmlənmə qaydasına görə.

3. Hallanma qaydasına görə.

4. Mənsubiyyət şəkilçisi qəbul edib-etməməsinə görə.

Bu dörd əlamətə görə ikinci növ təyini söz birləşmələrini üç yerə ayırmaq olar:

a)Təyini söz birləşməsi vəziyyətini tamamilə saxlayanlar.

b) Tamamilə mürəkkəb söz vəziyyətində olanlar.

c) Keçid vəziyyətində olanlar.

a) Təyini söz birləşməsi vəziyyətini tamamilə saxlayanlar.

1. Tamamilə ikinci növ təyini söz birləşməsi hesab olunan birləşmənin tərkibindəki sözlərin hər ikisi müstəqil vurğuya malik olur və ayrı yazılır; məs.: alma ağacı, mədəniyyət sarayı, kolxoz sədri, məktəb direktoru.

2. Tamamilə ikinci növ təyini söz birləşməsi hesab edilən birləşmənin cəmlənmə qaydası səsli ilə bitən isimlərin cəmlənmə qaydasından fərqlənir; yəni söz kökündən sonra cəm şəkilçisi, sonra da mənsubiyyət şəkilçisi işlənir; məs.: alma ağacları, mədəniyyət sarayları, klub müdirləri.

3. Tamamilə ikinci növ təyini söz birləşməsi vəziyyətində qalan birləşmənin hallanma qaydası səsli ilə bitən isimlərin hallanma qaydasından fərqlənir; məs.: alma ağacı, alma ağacının, alma ağacına, alam ağacını, alma ağacında, alma ağacından; mədəniyyət sarayı, mədəniyyət sarayının, mədəniyyət sarayına, mədəniyyət sarayını, mədəniyyət sarayında, mədəniyyət sarayından; klub müdiri, klub müdirinin, klub müdirinə, klub müdirini, klub müdirində, klub müdirindən.

4. Tamamilə ikinci növ təyini söz birləşməsi vəziyyətində qalan birləşmə üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfi olarkən ikinci bir mənsubiyyət

şəkilçisi (III şəxsin təki sı, si, su, sü şəkilçilərindən birini) qəbul etmir: məs.: bağın alma ağacı, rayonun mədəniyyət sarayı, universitetin klub müdiri.

b) Tamamilə mürəkkəb söz vəziyyətində olanlar:

1. Tamamilə mürəkkəb söz vəziyyətində olan ikinci növ təyini söz birləşmələrinin tərkibində olan sözlərin birincisi öz müstəqil vurğusunu itirir, vurğu yalnız ikinci söz üzərinə düşür, birinci söz ikinci sözlə birləşərək mürəkkəb bir söz kimi yazılır; məs.: ayaqqabı, xəmiraşı, boyunbağı, xalaoğlu və s.

2. Tamamilə mürəkkəb söz vəziyyətində olan ikinci növ təyini söz birləşmələri eynilə səsli ilə bitən isimlər kimi hallanır; yəni mənsubiyyət şəkilçisi cəm şəkilçisindən sonra deyil, ondan əvvəl işlənir; məs.: ayqqabılar, xəmiraşılar, boyunbağılar, xalaoğullar.

3. Tamamilə mürəkkəb söz vəziyyətində olan ikinci növ təyini söz birləşmələri eynilə səsli ilə bitən isimlər kimi hallanır; yəni, yönlük, yerlik və çıxışlıq hallarda II növ təyini söz birləşmələrinə xas olan xüsusiyyətlər bu mürəkkəb sözlərə aid olmur; məs.: ayaqqabı, ayaqqabının, ayaqqabıya, ayaqqabını, ayaqqabıda, ayaqqabıdan; xəmiraşı, xəmiraşının, xəmiraşıya, xəmiraşını, xəmiraşıda, xəmiraşıdan; boyunbağı, boyunbağının, boyunbağıya, boyunbağını, boyunbağıda, boyunbağıdan; xalaoğlu, xalaoğlunun, xalaoğluya, xalaoğlunu, xalaoğluda, xalaoğludan.

4. Tamamilə mürəkkəb söz vəziyyətində olan ikinci növ təyini söz birləşmələri səsli ilə bitən isimlər kimi sı, si, su, sü mənsubiyyət şəkilçilərindən birini qəbul edərək təyini söz birləşməsinin ikinci tərəfi kimi işlənə bilir; uşaq ayaqqabısı, qızın boyunbağısı, Rahimin xalaoğlusu və s.

v) Keçid vəziyyətində olan təyini söz birləşmələri:

İkinci növ təyini söz birləşmələrinin bir qismi mürəkkəb sözlüyə doğru inkişaf etsə də, hələ tam mürəkkəb söz vəziyyətinə düşməmişdir. Onlar mürəkkəb söz kimi bitişik yazılsalar da, ikinci növ təyini söz birləşməsinin bəzi xüsusiyyətlərini hələlik saxlayır.

Dilimizdə şəkərçörəyi, külqabı, dağkeçisi, əlyazması, qulaqburması, tülküquyruğu, almaçiçəyi, çobançiçəyi, çobanbayatısı, xoruzgülü, çobanyastığı, qüşüzümü, zəncirotu, yeralamsı, suiti, ərəbdovşanı, pişikotu, suilanı, ilanbalığı, gəlinbarmağı, dünyagörüşü, manqabaşçısı kimi ikinci növ təyini söz birləşmələri həm hallanma, həm də cəmlənmə xüsusiyyətlərinə, həm mənsubiyyət şəkilçisi qəbul edibetməmələrinə, həm də bir və ya iki vurğuya malik olmalarına görə nə tam təyini söz birləşmələridir, nə də tam mürəkkəb sözlərdir. Bunlar bir xüsusiyyətə görə ikinci növ təyini söz birləşməsinə, başqa bir xüsusiyyətə görə mürəkkəb sözə yaxınlaşır. Bir sözlə, bunlar tamamilə keçid vəziyyətindədir.

Təyini söz birləşməsi və cümlə

Türkologiyada bəzən təyini söz birləşməsi ilə cümlə eyniləşdirilir. Təyini söz birləşməsi həm şəkli cəhətcə, həm də məzmun etibarı ilə hələ cümlə deyildir. Təyini söz birləşməsinin cümlə olması üçün fikrin bitməsi, tamamlanması lazımdır. Fikrin bitməsi üçün təyini söz birləşməsinin şəkli cəhəti də dəyişməlidir. Xüsusən

Azərbaycan dilində iki sözü bir-birinin yanında təyini söz birləşməsi şəklində işlətməklə cümlə əmələ gətirmək mümkün deyildir. Bütün dillərdə olduğu kimi, Azərbaycan dilində də cümlənin əsasını baş üzvlər – mübtəda və xəbər təşkil edir ki, bunlar da müstəqil sözlərdən ibarət olur. Təyini söz birləşmələrində belə müstəqillik birtərəfli olduğundan onun tərkibindəki sözlərdən biri mübtəda, digəri xəbər ola bilmir; birinci söz həmişə asılı söz vəziyyətində qaldığı kimi, ikinci sözün də cümlənin hansı üzvü olacağı naməlum qalır. İkinci sözün müstəqil, yarımmüstəqil və ya asılı üzv olması cümlə daxilindəki yerindən, vəziyyətindən asılı olacaqdır. Digər tərəfdən, cümlədə bitmiş fikir ifadə olunduğu halda, təyini söz birləşməsində heç bir fikir bitkinliyi yoxdur. Cümlədə hökm, nəticə var, təyini söz birləşməsində isə real bir nəticə, qəti bir hökm yoxdur.

Professor N.K.Dmitriyev söz birləşməsi ilə cümlənin fərqindən danışarkən göstərir ki, söz birləşməsində və cümlədə iştirak edən sözlərin kəmiyyəti heç bir rol oynamır; hər ikisi iki sözlə ifadə olunduğu kimi, çox sözlə də ifadə oluna bilər. Onların əsas fərqi fikrin bitib-bitməməsindən ibarətdir. Cümlədə müəyyən və bitmiş bir fikir ifadə olunur ki, həmin fikirdən hər hansı bir real nəticəyə gəlmək olur. Cümlədə iştirak edən sözlərin bir-birilə olan müqabil əlaqəsindən yeni və bitmiş bir fikir hasil olur və nəticə çıxarılır. Təyini söz birləşməsində isə fikir bitmədiyindən heç bir hökm əldə edilmir və heç bir nəticə çıxarılmır. Şübhəsiz, *gözəl bina, məktəb direktoru, kolxozun gəliri* kimi təyini söz birləşmələrində bir məntiqcə bütöv bir fikir yoxdur. Bunlarda ancaq bitmiş bir fikrə doğru işarə vardır. Hamıya məlumdur ki, cümlənin əsasını mübtəda ilə xəbər təşkil edir. Mübtədasız və xəbərsiz və ya subyektsiz və predikatsız heç bir tam cümlə yoxdur. Buna görə də cümlə mübtəda ilə xəbərin sintezindən ibarətdir. "Əlaqələri mübtəda ilə xəbərin bir-birinə olan əlaqəsi kimi dərk edilən sözlərin hər bir sintaktik birləşməsi cümlədir. Əksinə, mübtəda ilə xəbərin arasındakı daxili bağlılıq (rabitə) kimi dərk edilməyən hər bir sintaktik birləşmə cümlə deyildir, söz birləşməsidir"[6].

N.K.Dmitriyev cümlə ilə təyini söz birləşməsinin fərqindən danışarkən həm cümlədə, həm də təyini söz birləşməsində subyektin olduğunu və bu subyektlərin fəal və qeyri-fəallığını, onların hərəki və ya qeyri-hərəki əlaqə ilə cümlə və ya birləşmə əmələ gətirmələrini də qeyd edir. Həm cümlədə, həm də söz birləşməsində subyekt vardır. Lakin bu subyektlər bir-birindən fərqlidir. Belə ki, cümlədəki subyekt fəaldır, hərəkətə istiqamətvericidir; onda (subyektdə) fəallıq və hərəkət vardır. Təyini söz birləşməsində iştirak edən subyektdə isə heç bir fəallıq, istiqamətvericilik və hərəkət yoxdur. Söz birləşməsindəki subyekt əşyalar arasında qeyri-hərəki əlaqə ifadə edir. Belə subyektlər bizim şüurumuzda yalnız potensial subyekt kimi dərk edilir. Beləliklə, təyini söz birləşməsinin hələ cümlə olmadığı və cümlə ilə təyini söz birləşməsi arasında böyük fərq olduğu meydana çıxmış olur.

Bütün bu izahatdan belə bir xülasə çıxarıla bilər:

a) təyini söz birləşmələri mürəkkəb sözlər deyildir, bir sıra əlamətləri ilə onlardan fərqlənir;

[6] Н. К.Дмитриев. Грамматика башкирского языка, М.–Л., 1948, səh. 202-203.

b) təyini söz birləşmələri cümlə deyildir, onlar tam və bitmiş bir fikir ifadə etmədikləri üçün cümlədən tamamilə fərqlidir;

c) nəzərdə tutulan birləşmələr hər hansı söz birləşmələri deyil, yalnız təyini söz birləşmələridir;

d) tam təyini söz birləşmələri iki və daha artıq sözün bir-biri ilə bağlanmasından əmələ gəlir, birinci söz özündən sonra gələn sözdən asılı olur;

e) asılı olan birinci söz həmişə və hər münasibətlə təyini vəzifə daşıyır və özündən sonrakı (birinci növ təyini söz birləşməsində cümlə üzvü kimi də) yalnız təyini olur. Onda tamamlıq məzmunu yox dərəcəsində olur;

f) birinci sözdəki təyinlik yalnız əşya ilə əlaqədar olur, heç bir proses əlaqəsini bildirmir;

g) təyini söz birləşmələrinin dairəsi çox genişdir və izafət (yiyəlik birləşməsi), sifət birləşməsi, say birləşməsi adlanan birləşmələri də əhatə edir.

Мухтар Гусейнзаде (Азербайджан)

Определительные словосочетания (Общие сведения)

Резюме

В статье вначале разъясняется терминологическое значение определительного словосочетания и, в частности, дается научное пояснение термина определительный. Далее определяется то, какие сочетания охватывает определительное словосочетание. Затем объясняется, какие слова образуют словосочетание, а какие нет, если и образуют, то они не связаны с предполагаемыми словосочетаниями. Границы определительного словосочетания, место изафетных сочетаний в этих границах, а также выражения и конструкции, не входящие в эти границы, показаны в научном и логическом аспектах.

В статье на конкретных примерах подробно рассматривается определительное словосочетание с указанием на логическую (смысловую) связанность и грамматическое (формальное) средство как основные факторы определительного словосочетания.

В статье на основании того, что одним из условий определительного словосочетания является неравноправие входящих в состав (состав словосочетания) слов, на примерах обосновывается, что парные слова не относятся к этой категории. Кроме того, конкретно определяются границы между сложными словами и определительными словосочетаниями.

Ключевые слова: *определительное словосочетание, изафетные сочетания, сложные слова, логическое значение, грамматическое средство.*

Mukhtar Huseynzade (Azerbaijan)

Attributive word combinations (General information)

Summary

The article first explains the terminological meaning of an attributive word combination, in particular, giving a scientific explanation of the term arttributive. Next, it is determined which word combinations are covered by the term attributive. Then it is explained which words form a word combination and which do not, and even some that do, are not attributive word combinations. The boundaries of an attributive word combination, the place of *izafet*-type combinations in these boundaries, as well as expressions and constructions that do not fall within these boundaries, are explained in both academic and logical terms.

The article deals in detail with specific examples of attributive combinations, indicating by logical (semantic) connections and grammatical (formal) means, the main factors in an attributive word combination.

One of the conditions for an attributive word combination is an inequality between the words that make up the combination; it is established with examples that paired words do not belong to this category. Additionally, the boundaries between complex words and attributive word combinations are specifically defined.

Keywords: *attributive word combination, izafet combinations, compound words, logical meaning, grammatical means.*